AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

# SƏRƏNCAM

№ 100/140

Bakı şəhəri «23» 10 2014-cü il

**"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilmə qaydalarının metodikası"nın təsdiqi və fiziki şəxslər tərəfindən verilən sadələşdirilmiş bəyannamənin tətbiqi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli, 263 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"ndan və "Normativ-hüquqi aktlardan irəli gələn vəzifələr haqqında" Dövlət Gömrük Komitəsinin 04 avqust 2014-cü il tarixli, 100/097 nömrəli sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.6.11-ci yarımbəndinə əsasən:

1. "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilmə qaydalarının metodikası" (əlavə olunur) təsdiq edilsin.

2. Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi (İqbal Babayev) Komitənin digər aidiyyəti struktur bölmələri ilə birlikdə gömrük sərhəd buraxılış məntəqələrindəki məlumat köşklərində, elektron məlumat lövhələrində və Dövlət Gömrük Komitəsinin rəsmi internet saytında yerləşdirilmiş bəyannamə formasının və bununla bağlı məlumatların yeni qanunvericilik aktlarının müddəalarına uyğunlaşdırılmasını təmin etsinlər.

3. Komitə sisteminə daxil olan gömrük orqanlarının rəhbərləri "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilmə qaydalarının metodikası"ndan irəli gələn tələblərin yerinə yetirilməsini təmin etsinlər.

4. İşlər İdarəsi (Rizvan Mustafayev) sərəncamın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Sədr** **Aydın Əliyev**

DGK-nın 100/140 nömrəli
23.10 2014-cü il tarixli
Sərəncamı ilə təsdiq edilmişdir

# Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilmə qaydalarının metodikası

## 1. Ümumi müddəalar

1.1. Bu metodika fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilməsi qaydalarının metodikasını müəyyən edir.

1.2 Fiziki şəxslər yazılı formada bəyan edilməli olan malları gömrük sərhədindən onlara dair sadələşdirilmiş bəyannamə verməklə keçirirlər.

1.3. Yazılı və ya elektron formada bəyanetmə zamanı sadələşdirilmiş bəyannamədən (bundan sonra bəyannamə) istifadə olunur (Forma 1).

1.4. Bəyannamə bəyannaməçi tərəfindən doldurulur.

1.5.Gömrük orqanlarının vəzifəli şəxsləri gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş məlumatların gömrük bəyannaməsinə daxil edilməsi (yazılması) istisna olmaqla, öz təşəbbüsləri və ya şəxsin xahişi ilə bəyannaməni doldurmaq, onda göstərilən məlumatları dəyişdirmək, ona əlavələr etmək və ya tamamlamaq hüququna malik deyillər.

1.6. Bəyannamə yetkinlik yaşına çatmış fiziki şəxs tərəfindən doldurulur.

1.7. Yazılı formada bəyan edilməli olan mallar gömrük sərhədindən yetkinlik yaşına çatmamış fiziki şəxslər tərəfindən keçirildikdə, həmin mallar onu müşayiət edən şəxs tərəfindən bəyan olunur.

## 2. Bəyannamənin təqdim edilməsi qaydası

2.1. Bəyannamə yazılı, "Elektron hökumət" prinsipləri və "Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələbləri nəzərə alınmaqla elektron şəkildə təqdim edilə bilər.

2.2. Bəyannamə gömrük orqanlarına təqdim edildiyi andan qəbul edilmiş sayılır.

2.3. Bəyannamədə müvafiq bəndlər və damalar tam doldurulmalıdır. Damaların doldurulmayan hissəsinə xətt çəkilməlidir.

2.4. Fiziki şəxslər istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malları gömrük sərhədindən əl yükündə və (və ya) müşayiət edilən baqajda keçirdikdə, sadələşdirilmiş bəyannaməni malların gömrük orqanına təqdim edilməsi ilə eyni vaxtda verirlər.

2.5. Bəyannaməçi tərəfindən müşayiət olunmayan baqajın olduğu bildirildikdə, avtonəqliyyat vasitələri gömrük sərhədindən keçirildikdə, sonradan geriyə aparılması

üçün nağd xarici valyuta olduqda və mallar müvəqqəti keçirildikdə bəyannamənin nüsxəsi tərtib edilir.

2.6. 2.5.-ci bənddə göstərilən hallardan başqa, müvafiq qaydada tərtib olunaraq təsdiq olunmuş bəyannamənin nüsxəsi şəxsin istəyi ilə ona verilir.

2.7. Bütün mallar barədə yazılan məlumatlar bəyannaməyə yerləşmədikdə, əlavə vərəq kimi yeni bəyannamə nüsxəsindən istifadə olunur və yuxarı sağ küncündə sıra nömrəsi qoyulur.

2.8. Mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi başa çatdıqdan sonra bəyannamə qanunvericiliklə müəyyən olunan müddətlərdə gömrük rəsmiləşdirilməsini həyata keçirmiş gömrük orqanında saxlanılır və gömrük orqanları bəyannamənin kağız və elektron arxivini formalaşdırır.

## 3. Bəyannamənin doldurulması qaydası

3.1. Bəyannamədə müvafiq dama "x"lə işarələnməlidir.

3.2. Bəyannamənin «giriş» və «çıxış» damalarında Azərbaycan Respublikasının gömrük sərhədindən keçən şəxs tərəfindən malların keçirilmə istiqaməti işarələnir.

3.3. Bəyannamənin 1-ci bölməsində bəyannaməçinin pasportunda göstərilmiş məlumatlara istinad edilərək aşağıdakılar göstərilir:

3.3.1. bəyannamənin 1.1. bəndində bəyannaməçinin soyadı, adı və atasının adı;

3.3.2. bəyannamənin 1.2. bəndində pasportun seriya və nömrəsi;

3.3.3. bəyannamənin 1.3. bəndində vətəndaşlığı;

3.3.4. bəyannamənin 1.4. bəndində hansı ölkədən gəldiyi (hansı ölkəyə getdiyi);

3.4. Bəyannamənin 2-ci bölməsində bəyan olunan mallar barədə məlumatlar göstərilir:

3.4.1. bəyannamənin 2.1. bəndində gömrük sərhədindən keçirilən 10 000 (on min) ABŞ dolları ekvivalentindən artıq valyuta və qiymətli kağızların mövcudluğu;

3.4.2. bəyannamənin 2.2. bəndində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlərdən artıq olan və ya müəyyən edilmiş şərtlərə uyğun olmayan, habelə gömrük sərhədindən keçirilməsinə xüsusi razılıq (lisenziya), icazə sənədi tələb olunan malların mövcudluğu;

3.4.3. bəyannamənin 2.3. bəndində Azərbaycan Respublikasının gömrük sərhədindən 1500 (bir min beş yüz) ABŞ dolları ekvivalentindən artıq qiymətli metalların və qiymətli daşların mövcudluğu;

3.4.4. bəyannamənin 2.4. bəndində Azərbaycan Respublikasının gömrük sərhədindən qanunvericiliklə müəyyən olunan həddən artıq müvəqqəti keçirilən malların mövcudluğu;

3.4.5.bəyannamənin 2.5. bəndində avtonəqliyyat vasitəsinin mövcudluğu və onun tranzit qaydada keçirilib-keçirilməməsi göstərilir;

3.4.6. bəyannamənin 2.6. bəndində bəyannaməçiyə məxsus olan, gömrük sərhədindən nəqliyyat və ya poçt təşkilatı tərəfindən keçirilən müşayiət olunmayan baqajın, habelə daşıyıcı şirkət tərəfindən keçirilən malların mövcudluğu.

3.5. Bəyannamənin 2-ci bölməsinin sonundakı cədvəldə bəyannaməçi tərəfindən bəyannamənin 2.1-2.6 bəndlərində bəyan olunan mallar haqqında ətraflı məlumatlar göstərilir:

3.5.1. sıra nömrəsi;

3.5.2. mal haqqında məlumat (avtonəqliyyat vasitəsi olduqda onun mühərrik nömrəsi (VİN))

3.5.3. gömrük sərhədindən keçirilən malların miqdarı (əlavə ölçü vahidləri ilə);

3.5.4. müşayiət olunmayan baqaja dair sənədlərin və ya mövcud olduqda icazə sənədini verən dövlət orqanının adı, sənədin verilmə tarixi və nömrəsi;

3.5.5. malın müvəqqəti qalma müddətinin son günü, saatı;

3.5.6. malın gömrük dəyəri və malların ümumi (yekun) dəyəri.

3.6. Bəyannamənin 3-cü bölməsində bəyannamənin təqdim edildiyi tarix göstərilir və bəyannaməçinin imzası ilə təsdiq edilir.

3.7. Bəyannamə bəyannaməçi tərəfindən təsdiqləndikdən sonra xidməti qeydlər hissəsində gömrük orqanının əməkdaşı tərəfindən aşağıdakı məlumatlar göstərilir, şəxsi nömrəli möhürü və imzası ilə təsdiq edilir:

3.7.1. gömrük orqanları tərəfindən avtonəqliyyat vasitəsinin müvəqqəti keçirilməsinə dair götürülmüş təminat üsulu haqqında məlumat;

3.7.2. ödənilmiş gömrük ödənişlərinə dair verilmiş qəbzin nömrəsi və tarixi;

3.7.3. avtonəqliyyat vasitəsinin qeydiyyat nömrələri və avtonəqliyyat vasitəsi daimi gətirildikdə və ya tranzit qaydada keçirildikdə avtonəqliyyat vasitəsinin tam rəsmiləşdirilməsini həyata keçirən və ya təyinat gömrük orqanının adı;

3.7.4. gömrük rəsmiləşdirilməsini həyata keçirmiş gömrük orqanının adı;

3.7.5. gömrük əməkdaşı tərəfindən zəruri hesab edilən digər məlumatlar.

# Fiziki şəxslər tərəfindən verilən sadələşdirilmiş bəyannamə

giriş ☐ çıxış ☐

## 1. Şəxs haqqında məlumat

1.1. ______________________ (adı, soyadı, atasının adı)

1.2. Pasport __ №______________

1.3. ______________________ (vətəndaşlığı)

1.4. ______________________ (gəldiyi ölkə/getdiyi ölkə)

## 2. Bəyan olunan mallar

2.1. 10000 (on min) ABŞ dolları ekvivalentindən artıq valyuta və qiymətli kağızlar — hə ☐ yox ☐

2.2. müəyyən edilmiş hedlərdən artıq olan və ya müəyyən edilmiş şərtlərə uyğun olmayan, habelə xüsusi razılıq (lisenziya), icazə sənədi tələb olunan mallar — hə ☐ yox ☐

2.3. 1500 (min beş yüz) ABŞ dolları ekvivalentindən artıq qiymətli metallar və qiymətli daşlar — hə ☐ yox ☐

2.4. müəyyən olunan həddən artıq müvəqqəti keçirilən mallar — hə ☐ yox ☐

2.5. avtonəqliyyat vasitələri* ☐ tranzit — hə ☐ yox ☐

2.6. müşayiət olunmayan baqajla ☐ və ya daşıyıcı tərəfindən keçirilən mallar ☐ — hə ☐ yox ☐

| Sıra №-si | Mal barədə məlumat | Miqdarı | Qanunvericiliklə tələb olunan hallarda, icazə sənədinə dair məlumatlar | Müvəqqəti qalma müddəti** | Gömrük dəyəri |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | Ümumi dəyər (yekun) | |

3. Məlumatların düzgünlüyünə və tamlığına görə cavabdehlik daşıyıram.

"____" __________ 20__il Şəxsin imzası ______________

Gömrük orqanının xidməti qeydi ______________________

M.Y.

İmza

*Avtonəqliyyat vasitəsi bəyan olunduqda, onun mühərrik, şassi və ban nömrələri göstərilir.

** Mallar gömrük ərazisinə müvəqqəti gətirildikdə və ya gömrük ərazisindən müvəqqəti aparıldıqda, onların müvəqqəti qalma müddəti göstərilir.